

# Heydər Əliyev Azərbaycanın 50 illik tarixidir

**1969-cu il iyulun 14-də ümummilli lider Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbər seçilməsinin 50 ili tamam olur. Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və səriştəli rəhbərliyi nəticəsində Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı respublikasına, o cümlədən qabaqcıl pambıqçılıq və üzümçülük diyarına çevrildi.**

Kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyəti əsaslı surətdə yaxşılaşdı. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı. Azərbaycanda sənayeləşmə prosesi geniş vüsət aldı.

Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbər seçilməsinin 50 illiyi ilə bağlı hafta.az-a danışan millət vəkili Fəzail İbrahimli deyir ki, bu dövrü Azərbaycanın yarıməsirlik bir tarixi kimi də qiymətləndirmək olar: “Mən o vaxtı yaxşı xatırlayıram. Məktəbi bitirib universitetə imtahan verirdim. Mənim siyasi taleyim Heydər Əliyevin hakimiyyəti ilə bağlı olub. 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi respublikada yeni ab-hava yaratdı. Kifayət qədər insanlarda məsuliyyət hissi formalaşdı. Gəldiyi gündən atdığı addımlar insanlarda ruh yüksəlişi yaratdı. Ulu öndərin hakimiyyətə gələnə qədər ittifaq miqyasında olan birinci şəxslər Azərbaycan sözünü ifadə edə bilmirdilər. Heydər Əliyev Azərbaycanın 50 illik səhifəsidir. Respublikamızın inkişafı - yer altında çəkilən metrostansiyalar, yerin üstündə yaradılan müasir şəhərlər, rayonlar, mikrarayonlar, qəsəbələr, kəndlər məhz onun ölkəmiz üçün apardığı siyasətin bariz nümunəsi idi. Həm ittifaq tərkibində olanda, həm müstəqil Azərbaycana rəhbərlik edəndə ölkəmiz üçün etdikləri göz önündədir. Hər yerdə onun izi görünür”.

“Heydər Əliyev Azərbaycanın bir guşəsini ümumi, kosmopolit vətəndən üstün tutur, birinci yerə respublikasını qoyurdu”. Bunu hafta.az-a millət vəkili, professor Musa Qasımlı bildirib. Profesorun sözlərinə görə, məlum olduğu kimi, Azərbaycan xalqı 1918-ci ilin may ayında müsəlman dünyasında bir İlkə imza ataraq ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətini, respublika idarə üsulunu yaratdı: “Müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərdi.

ardı səh. 3

# Heydər Əliyev Azərbaycanın 50 illik tarixidir



◄ əvvəli 1-ci səhifədə

Lakin Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyasının istilasına məruz qaldıqdan sonra milli dövlət süqutu uğradı. Azərbaycan SSR yaradıldı. Müstəqil dövlətçiliyin atributlarının məhv edilməsinə başlandı. XX əsrin 20, 30 və 40-cı illəri sovet dövlət quruculuğu adı altında müstəqil dövlətçiliyin ləğv edilməsi, təbii sərvətlərinin amansızlıqla talan edilərək daşınıb aparılması, Azərbaycanın mərkəzə daha çox bağlanması, milli ədəbiyyatın, milli ruhlu ziyalıların məhv edilməsi, təqiblər və repressiyalar ilə yadda qaldı. Azərbaycan rəhbərliyində təmsil olunan şəxslər arasında intriqalar, mərkəzə şikayət dolu məktubların göndərilməsi respublikaya olan mənfi münasibəti daha da artırırdı.

**Sovet lideri Stalinin ölümündən sonra ölkədə nisbi yumuşalma baş verdi. Lakin həmin yumşalmadan milli məsələlərin həlli üçün bacarıqla istifadə olunmadı. Mərkəz Azərbaycanı cəzalandırmaq yolu tutdu. Yenidən milli ruhlu insanlar sıxışdırılmağa başlandı.** 1969-cu ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra şərait tədricən dəyişməyə başladı. Fabrik və zavodların tikilməsi və işə salınması nəticəsində yerlərdən gənclərin paytaxta gəlməsi ilə çarizm və sovet dövrlərində milli simasını itirimiş Bakı şəhərinə milli ruh gəldi. Dövlət müstəqilliyinin maddi təməlləri olan ərazinin qorunmasına, əhalinin artımı və inkişafına, hakimiyyətin güclü olmasına xüsusi diqqət yetirildi. İstiqlalı üçün lazım olan maddi təməllər sovet sistemi daxilində formalaşmağa başladı. Azərbaycan ərazisindən qonşu respublikalara pay verilmədi. Əhalinin sosial-iqtisadi vəziyyəti yaxşılaşdırıldı. Bu, əhalinin demoqrafik inkişafına ciddi təsir etdi". M.Qasımlı diqqətə çatdırırb ki, Heydər Əliyev sovet sistemi şəraitində Azərbaycanı daim didib-parçalayan, xalq haqqında mərkəzdə mənfi rəy yaradan intriqalara son qoydu: "Hakimiyyətin qanadları arasında yekdillik yaradıldı. Xalq ilə hakimiyyət arasında birlik quruldu, milli kadrların yerləşdirilməsinə üstünlük verildi. Güclü hakimiyyət formalaşdırıldı. Bütün ölkədə slavyan xalqların nümayəndələri milli respublikalarda hakimiyyət kürsülərinə daha çox gətirildiyi bir zamanda Heydər Əliyev yerli kadrları hazırlamağa və ətrafına toplamağa başladı. Xarici tədqiqatçılar Heydər Əliyevin uğurlarından biri kimi məhz bu amili görürdülər. İstiqlal üçün tələb olunan mənəvi amillərin formalaşması üçün addımlar atıldı. Məlum olduğu kimi, Azərbaycanın istiqlal fikri azərbaycanlı maarifçilərin, şair, yazıçı və alimlərin əsərlərində intişar tapmışdı. İstiqlal məfkurəsini əsər və düşüncələrində gəzdirdikləri üçün əvvəlki illərdə daim təqib olunmuş alim, şair, yazıçı və yurnalistlər azad nəzəf aldılar. Belə şəxsləri mərkəzin cənginə verməyən Heydər Əliyev bəzən onları yüngülcə tənqid etsə də, az sonra onlara yüksən fəxri adlar və vəzifələrə verərək qoruyur və toxunulmaz edirdi". Tarixçi onu da əlavə edib ki, Heydər Əliyev Azərbaycan dili üzrə tədqiqatların aparılmasını təşviq edir, həmin sahənin görkəmli alimlərinə dövlət mükafatlarını verirdi:

**"Azərbaycan ədəbiyyatının görkəmli xadimlərinin xatirəsini əziz tutur və əbədiləşdirirdi. Sovet dövründə hamının ümumi vətəni hesab edilən SSRİ-nin bir guşəsindən uzaq Sibirdən böyük mütəfəkkir Hüseyn Cavidin məzarının işlədiyi Bakıya deyil, doğulduğu Naxçıvana köçürülməsinin dərin mənası var idi.** Hüseyn Cavidin məzarının köçürülməsi təkcə tarixi ədəbi irsin mühafizəsinə göstərilən qayğı deyil, şair, yazıçı, jurnalist və alimlərə qorxmamağa, yazıb-yaratmağa bir işarə idi. Xarici tarixçilərin yazdığı kimi, azərbaycanlılar XX əsrdə iki dəfə Bakıda başlarını dik tutaraq gəzmişdilər: birinici dəfə, 1918-ci ilin sentyabr ayında Qafqaz İslam ordusu tərəfindən şəhər azad edildikdən sonra; ikinci dəfə isə özlərinə inamın artdığı 70-ci illərdə. Sonralar çıxışlarının birində Heydər Əliyev deyirdi: "Doğrudur, 22 il bundan öncə biz bilmirdik ki, Azərbaycan müstəqil dövlət olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım".

■ **"Ümummilli lider Heydər Əliyev öz həyatını Azərbaycan xalqına həsr etmiş dahi şəxsiyyətdir.** Əgər 50 il bundan əvvəl ulu öndər hakimiyyətə gəlməsəydi, bu gün müasir, durmadan inkişaf edən Azərbaycandan danışa bilməzdik. Ona görə də iyulun 14-ü Azərbaycan xalqının tarixi taleyində heç vaxt unudulmayacaq günlərin sırasına həkk olunub". Bu fikirləri hafta.az-a açıqlamasında millət vəkili Tahir Rzayev deyib.

O qeyd edib ki, Heydər Əliyev həmin dövrdə Azərbaycanı Sovetlər İttifaqının 15 respublikası içərisində on yerlərə çıxardı: "Ulu Öndər Azərbaycanı İttifaq respublikaları içərisində o dövrdə ən axırıncı yerlərdən ilk yerlərə gətirdi. Yəni, qısa müddətdə Azərbaycan artıq inkişaf sürətinə görə qabaqcıl respublikalardan biri idi. Məhz o illərdə yüksək sürətlə müasir sənaye kompleksləri yaranır, kənd təsərrüfatı inkişaf edirdi. Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. O illərdə də Heydər Əliyev xalqın lideri kimi Azərbaycanın rifahının qayğısına qalır, xalqın maraqlarını müdafiə edir, bu istiqamətdə yorulmadan çalışırdı. Yəni, onun hər bir addımı Azərbaycanla bağlı idi. Elə götürək, 1990-cı ilin Qanlı Yanvar hadisələrini. Həmin dövrdə Heydər Əliyev yenə də cəsarətli insan, böyük vətənpərvər olduğunu nümayiş etdirdi. O, 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək etiraz səsini bütün dünyaya çatdırdı. 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yarananda xalq yenə Ulu Öndərə müraciət edərək onu siyasi hakimiyyətə dəvət etdi və Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçdi. Bununla da Azərbaycanda quruculuq, sabitlik və inkişaf dövrü başladı. Sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərksilah edildi və Azərbaycan islahatlar yoluna qədəm qoydu".

**Millət vəkili vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin layiqli siyasi davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda Azərbaycanda bütün sahələrdə dinamik inkişaf təmin edilib və böyük nailiyyətlər əldə olunub: "Azərbaycan müstəqillik yolu ilə inamla addımlayır.**

Prezident İlham Əliyevin milli dövlət quruculuğu prosesini uğurla davam etdirməsi nəticəsində bu gün Azərbaycan regionun lider ölkəsinə çevrilib. İqtisadi, sosial, mədəni və digər sahələrdə həyata keçirilən islahatlar beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Bu siyasət hər bir Azərbaycan vətəndaşının maddi və sosial rifahının artmasına xidmət edir.

Artıq Azərbaycan dünya miqyasında söz sahibi olan ölkələrdəndir. Bu gün ölkəmiz müxtəlif beynəlxalq tədbirlərə, konfranslara ev sahibliyi edir. Təbii ki, bütün bunların memarı məhz Heydər Əliyevdir. Ona görə də Heydər Əliyevin adı Azərbaycan xalqının qəlbində əbədi olaraq yaşayacaq".

■ **"Azərbaycanın 50 illik dövrünü əhatə edən tarixi və siyasi taleyi, bu illər ərzində ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində baş vermiş dirçəliş, inkişaf və tərəqqi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.** Ulu Öndərimiz Azərbaycan naminə, bütöv, müstəqil Azərbaycan və azərbaycançılıq uğrunda çalışıb, mübarizə aparıb və qalib gəlib". Bu fikirləri hafta.az-a açıqlamasında millət vəkili Aydın Hüseynov bildirib.

Deputat qeyd edib ki, Azərbaycanın iyirminci əsrdəki inkişafının əsası 1969-cu ilin 14 iyulunda qoyulub: "Həmin tarixdə siyasi hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev, sözün həqiqi mənasında, böyük bir xalqın həyatında möhtəşəm dəyişikliyə nail olub, milli, müstəqil dövlətin qurulması üçün zəruri olan bütün işləri görüb. 1969-cu ilə qədər SSRİ-nin aqrar respublikası kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan bir diyara çevrilib. Ona görə də 1969-cu ilin 14 iyulunda ulu öndər Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsi ölkəmizin müstəqillik tarixinin, parlaq və işıqlı yolunun başlanğıcı kimi qiymətləndirilir. Heydər Əliyev öz xidmətləri ilə hər bir azərbaycanlıya Vətən üçün, Azərbaycan üçün qurub-yaratmaq, yorulmadan xidmət etmək fəlsəfəsini aşılayıb, Azərbaycanı 1969-1982-ci illərdə inkişaf etmiş sənaye-aqrar respublikasına çevirərək, bugünkü müstəqilliyimizin təməlini qoyub. 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilib, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunub. Həmin illərdə Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artıb. Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 10 mindən çox azərbaycanlı oğlan və qız təhsil almağa göndərilib.

**Bütün bunlar Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin bəhrələri idi. Bundan başqa, 70-ci illərdə Bakıda, Naxçıvanda, Gəncədə, Mingəçevirdə, Lənkəranda, Xankəndidə bir-birinin ardınca elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri istifadəyə verilib.** 1970-1982-ci illərdə Azərbaycanda tikilib istifadəyə verilmiş fabrik, zavod və digər sənaye-istehsal müəssisələrinin sayı əvvəlki 50 ildə tikilən müəssisələrin sayından qat-qat çox idi. Azərbaycanda milli dəyərlərin qorunması, xalqın milli düşüncə tərzinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirləri yalnız Heydər Əliyev kimi Vətəninə, xalqına bağlı, cəsarətli bir dövlət xadimi, siyasi lider reallaşdıra bilərdi. Bu istiqamətdə o dövrdə görülən işlərin bəhrəsini biz indi daha aydın dərk edirik. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycandakı memarlıq abidələrində bərpa işləri aparılıb, tarix və mədəniyyət abidələrinin pasportu hazırlanıb, görkəmli şair və yazıçıların yubileyləri keçirilib, tarixi şəxsiyyətlərin və xalq qəhrəmanlarının abidələri ucaldılıb, onların adlarını daşıyan yaşayış məntəqələri salınıb, milli varlığımızın, dəyərlərimizin və adət-ənənələrimizin təbliğinə xidmət edən filmlər çəkilib".

A.Hüseynov qeyd edib ki, 1993-cü ilin yayında milli dövlətçiliyimiz ikinci dəfə məhvolma təhlükəsi ilə üzləşdiyi bir vaxtda xalq yenidən nicatını Ulu Öndərin hakimiyyətə qayıdışında gördü: "Xalqın təkidi ilə dahi rəhbər Naxçıvandan Bakıya dəvət olundu. Vətəninin və xalqının taleyinə biganə qala bilməyən Ümummilli Lider 1993-cü ilin iyun ayında Naxçıvandan Bakıya qayıtdı və bu qayıdış Vətənin xilası, xalqın qurtuluş tarixinə çevrildi, Azərbaycan 1969-cu ildən başlanan quruculuq yoluna döndü. Torpaqlarımızın işğalının qarşısı alındı, milli ordu yaradıldı, sabitlik təmin olundu. Ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, "Əsrin müqaviləsi"nin imzalanması, vaxtilə çoxlarının əfsanə hesab etdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilməsi Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, infrastrukturun yenilənməsinə, yeni iş yerlərinin açılmasına imkan verdi. Bir sözlə, 1969-cu ildən başlanan quruculuq xəttinin 1993-cü ildən sonra davam etdirilməsi hərtərəfli inkişaf edən, dünyada söz sahibinə çevrilən müstəqil Azərbaycan dövlətinin daha da güclənməsinə səbəb oldu. Bu gün həmin ideyalar ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Azərbaycanın qüdrəti gündəngünə artır".

✍ Sevinc